# Baldan şirin Novruz

Şabran rayonunda tatların sıx yaşadığı Dağ Bilici kəndinin sakinləri bu bayramı öz xüsusi adət-ənənələri ilə qeyd edirlər.

Qışın sonu olan Boz ay başlayanda bütün ailələr günaşırı bir yerə yığışar, böyüklü-kiçikli simsar qohumlar arasında deyişmələr keçirər, nəğmələr oxuyarlar. İlk çərşənbədə pul qoyub buğda alarlar. Yaşca böyük olan ailələrdən birinin başçısı önə çıxıb həmin buğdanı eyni miqdarda ailələrin sayı qədər hissələrə bölər. Qadınlar evdən gətirdikləri boşqablarda səməni qoyar və bu bayatını oxuyarlar:





***Səməni, ay səməni,***
***Gəl tez bəzə çəməni.***
***Ruzi-bərəkətinlə***
***Sən də sevindir məni.***

Boşqablarda əkilən səməni evlərin pəncərəsinə qoyular. Kənd ağbirçəyi Rəna Ağasıyeva bunu belə izah edir:

- Novruz başlayandan tədricən gecələr qısalmağa doğru gedir. Öncə günəş səhərlər səməni ilə üzləşir və yerə onun yaşıllığı naminə daha isti havasını göndərir. Digər tərəfdən, bərəkət rəmzi olan yaşıl ləçəklər evdə, obada, vətən torpağının hər tərəfində dolaşan pis ruhları qovur. Yeni günlərə rəvac verən Novruzun yollarını təmizləyir.

Beləcə bahara doğru çərşənbələr yol alır. Su, Od, Yel və Torpaq çərşənbələrində kənd camaatı axşamlar bir yerə yığışır. Qərara alırlar ki, Novruz bayramını necə keçirəcəklər. Tat adətlərindən biri də budur ki, həmin ərəfədə kənddə yaşayan imkansız ailələr siyahılanar. Siyahıda birinci təzə uşağı olan ailələr qeyd edilir. Daha sonrakı yerlərdə yoldaşı səfərdə olan, övladları ali təhsil alanlar və yeni ailə quranlar yer alır. Kimin imkanı nəyə çatarsa, onu gətirəcəyinə söz verir. Bir də görürsən ki, xeyli ərzaq yığılıb. Onlar xüsusi qaydada qablaşdırılır. Hamısının üstünə adlar yazılır, paylayacaq adamlar müəyyənləşir. Onlara hər işdə uşaqlar yaxından kömək edirlər. Son çərşənbə axşamı həmin yığılmışlar siyahı ilə paylanır.

Kənd ağsaqqalı Bayram kişi deyir ki, insanlar bir-birinə yardımçı olmalıdır. Babalarımız hələ qədim zamanlarda əl tutmaqları ilə seçiliblər. Mənim babam danışardı ki, yığılan pay hətta yaxın kəndlərə də göndərilərdi. O zamanlar dövran ağır idi. Hamı gərək bir-birinə dayaq olaydı. Novruzun ən böyük mənası, məncə, elə birlikdən başlayır.

Tatlar Novruzu üç gün qeyd edirlər. Belə ki, mart ayının 19-u günü səhər kəndin xanımları bir yerə yığışır. Qərara gəlirlər ki, builki səməni horrasını filankəs bişirəcək. Bayram axşamı kənd camaatı evlərindəki səmənilərin gətirirlər həmin şəxsin həyətinə. Səliqə ilə onları düzürlər masanın üstünə. Daha sonra səmənilərin döyülməsi başlanır. Xüsusi qaydada hazırlanmış toxmacla onu qabların içində əzirlər. Daha sonra ocaq qalanır. İri qazanlarda qadınlar səməni horrasını bişirməyə başlayırlar. Döyülüb əzilmiş səməninin suyunu süzüb boşaldırlar həmin qazanlara. Bişirmə "əməliyyatı" 12-14 saat çəkir. Bu vaxt bir nəfər əlində taxtadan hazırlanmış oxlovla onu qarışdırır. Dayanmadan bulanan səməninin suyuna yalnız un əlavə olunur. Sonda həmin qarışıq halva halına gətirilir. 19 mart gecəsi bişməyə başlayan səməni horrası 20-si tezdən hazır olur.

Günorta kəndin camaatı horra bişən məhəlləyə yığışır. Səməni horrasını paylamamışdan öncə bir kənd ağbirçəyi qazanın kənarına çağırılır. Həmin şəxs dua eləməyə başlayır. Öncə Quran ayələri oxunur. Sonra oraya toplaşanlar onun dediyini təkrar edirlər:

- Şükür sənə, ay Allah, gəlib bu Novruza çatdıq. Bu ilimizi də can sağlığı ilə başa vurduq. Sən bizi dərddən, beladan, pis əməllərdən qoru. Vətənimizi azad və insanlarını xoşbəxt et. Bizi sevgi dolu günlərə, ruzulu ocaqlara, bərəkətli düzlərə qovuşdur!

"Amin" sədaları hər tərəfi bürüyür. Daha sonra halvanı boşqablara doldurub kənd camaatına paylayırlar. Uşaqlar əllərindəki dolu boşqablarla həyətlərə qaçaraq onu ev yiyələrinə verirlər. Sonra yenidən camaat bir yerə yığışır. Əvvəlcədən toplanan ərzaq, geyim çantalarda aztəminatlı ailələrə paylanır.

Axşama yaxın, demək olar ki, bütün kənd bir yerə cəm olur. Musiqi sədaları altında Dədə Qorqud, Keçəl və Kosa başlayırlar meydan sulamağa. Öncə Dədə Qorqud sazını köksünə basıb ötən ilin uğurlarından söhbət açır:

***Günəş boylanır yenə dağların arxasından,***
***Toxum cücərdi yenə yaşıllıq yaxasından.***
***Torpaq bərəkət yeri, becərək qarış-qarış,***
***Bənövşəni, nərgizi asaq tər yaxasından.***

Sonra Kosa meydanda oyun qurur: böyüklü-kiçikli hamı halay dayanır, Keçəl sola boylanır, sağa boylanır. Meydana axşamdan bişirilməsinə başlanan səməni horrası gətirilir. Milli geyimdə qız və oğlan bu yaz nemətini Kosaya verir. Qorqud baba sazı sinəsinə basıb nəğməsini oxuyur:

***Səməni baldan şirin,***
***Horrası baldan şirin.***
***Novruz səma bayramı,***
***Sevdası baldan şirin.***

Bu zaman Keçəlin səsi hər tərəfi bürüyür. O, bütün ocaqların çatılmasını tələb edir. Beləcə müxtəlif yerlərdə ocaq qalanır. "Yallı" rəqsinin sədaları altında qızlar oynayır. Bir tərəfdə samovar çayı stəkanlara süzülür və hamıya paylanır. Evlərdən gətirilən şəkərbura, qoğal, paxlava və digər Novruz şirniyyatı bircə-bircə iştirakçılara verilir. Hamı deyib-gülür, küsülülər barışır, dərdlilər kədərindən uzaq düşür. Gecə yarını ötəndə Dədə Qorqud yenə meydanda görünür:

***Ulduzlardan gələn nura baxarız,***
***Yerdə ildırımtək coşub-çaxarız.***
***Səbir bizim bahar payımız,***
***Biz gedəlim, yuxu yatarız,***
***Səhər yenə günəş ilə qalxarız.***

Yavaş-yavaş hamı öz evinə gedir. Kənd ağbirçəyi Rəna Ağasıyeva deyir ki, tat inancına görə, hamı öz evinə çəkilir ki, gecə ulduzların arasından Novruzla Bahar qoşalaşıb uçaraq yerə ensinlər. Çünki səmaların nadir günü olan yazın ilk günündə göyün üzü açıq olur. Onun gözəlliyini görən olsa, o, bir daha yerə enməz.



Səhəri Dağ Bilici kəndinin sakinləri yeni əhvali-ruhiyyə ilə açırlar. Günortaya yaxın hamı yenə mərkəzi meydana yığışır. Musiqiçilərin səsi hər tərəfi bürüyür. Meydana gələn hər kəs özü ilə oturacaq gətirir. Burada masa arxasında sıra ilə otururlar. Masaların üstünə şəkərbura, paxlava, qoğal, qoz-fındıq, rənglənmiş yumurtalar düzülür, çay paylanır.

Bu zaman atın belində sarı geyimli bir nəfər meydana yaxınlaşır. Hamı onu belə alqışlayır:

***Parla, günəşim, parla,***
***Bura yaxşını hayla.***
***Suyun, Odun, Yelindən***
***Torpağa payın payla.***

İnanca görə, günəş hər şeyin nizama qoyulmasında ən vacib şərtin daşıyıcısıdır. Ona görə bir yerə yığışan sakinlər əllərini göylərə qaldırıb dua edirlər:

***Suyunu artıq eylə,***
***Odunu ılıq eylə,***
***Yelin gəzsin, dolansın,***
***Yerinə bolluq eylə.***

Ötən çərşənbələr yada salınır, onların xoş əməllərdən sorağı alqışlanır. Bu zaman meydana Bahar qız daxil olur. Uşaqlar əllərində səməni dörd tərəfə qaçışır və "Bahar gəldi" sözlərini xorla səsləndirirlər. Hamı bir-birini təbrik edir. Bundan sonra qadınlar əllərində qazanlar masalara yaxınlaşıb plovu camaata paylayırlar. Yeyib-içmək sona çatandan sonra hər şey yığışdırılır və Bahar qız meydana çağırılır. Əsl çalıboynamaq bundan sonra başlanır, mahnılar səslənir, rəqslər edilir. Uşaqların sevinci xüsusilə əvəzsizdi bu bayram axşamlarında. Onlar kəndin qapılarına papaq atıb yığdıqları şirniyyatı öz aralarında bölüb, həvəslə yeyirlər.

Hər il tat kəndi olan Dağ Bilicidə Novruzun qədəmlərini belə qarşılayırlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***